

*Məmməd İSMAYIL*

***NİGAHLANDIM QÜRBƏT ADLI CƏHƏNNƏM ƏZABINA,***
***SƏNDƏN GƏLƏN NƏ ZÜLMƏT VAR NURDU MƏNƏ, ALLAHIM.***

## AĞIR-AĞIR AXAN SULAR GEDƏN BİR DƏ GƏLMƏZ DEYİR...

Önündən keçər su yolu,
Baxar sahil qamışları…
Bir yanıqlı tütək olub
Ötər yadda qalmışları.

Bozarır üfüqdə qışlar,
Ömrü gödək günlər baxır.
Sahildən köçəri quşlar,
Dənizdən delfinlər baxır…

Bir yerdə durmaz ki su, bu
Dönəcəyin dönən yeri.
Uzaqda axşam qürubu
Həsrətin görünən yeri…

Güzgü tutur bulud günə,
Yağış yağır narın-narın.
Bu yağışlar ölümünə
Yağar sarı yarpaqların.

Üfüqdə axşam qürubu
Baxan gözdən yaş istəyər...

Bəlkə qürbətlər, qəribi
Özünə yoldaş istəyir..

Günəş, Ay, ulduz səmada,
Bəs nə var pərişan yerdə.
Ayrılıqlar başlamada
Dənizlər qovuşan yerdə…

Boğaz seyrəngaha dönər
Gözləyər bütün qışları;
Sularında güzgülənər
Qürbətin qərib quşları…

Çox olsa ömrü üç aydı,
Qış çəkilər, gələn gedər…
Qəribim, bəxtin olsaydı
O köçəri quşlar qədər...

Bacarsaydın yır-yığışı,
Bir köçəri quş olsaydın.
Başa vurub üç ay qışı
Vətənə dönmüş olsaydın...

…Ağır-ağır axan sular
Gedən bir də gəlməz deyir.
O enişlər, bu yoxuşlar
Bu dünya düzəlməz deyir.

## VƏTƏNƏ CAN ATAN ÜMİD İŞIĞI

Alova ataram son arzuları,
Arada əlini ümid isidər.
Dumana bürünər boğaz suları,
Vətənə qovuşmaq təsəllisi də…

Dözə bilirsənsə, döz bu axşama
Dardanel: birləşən qəm dənizləri.
Gelib qürbətlərdə qəlbinə damar
Bir ömrün vətəndə qalan izləri...

Axşama yerini buraxar səhər
Qaraldan qaraldar üzü ağ ömrü.
Uzanıb bahardan payıza qədər
Yaşıldan sarıya bir yarpaq ömrü.

Kimin gizlinidir sirr içində sirr,
Həsrət hörümçəyi sığınar küncə:

Qürbət girdabında güman əriyir,
Bir ağlın ucunda ölür düşüncə…

Xəyal həqiqətin dalınca getdi,
Bir daha geriyə dönmədi gedən.
Sənə öz xəyalın xəyanət etdi,
Sədaqət ummağın nəydi özgədən…

Yox, daha əriməz quzeydə qarlar,
Sən gəzən baharlar heç vədə gəlməz.
Vətəndə açılıb solan baharlar
Nə illah etsən də qürbətə gəlməz...

Nəfəsi təngiyib köks ötürmədə,
Buxarmı həyatın cavan çağları.
Göynən əlləşərdi, yer süpürmədə
Ömür bağçasının son yarpaqları...

Nə qədər dişimi dişimə sıxım,
Ağrı buxarlansın can həvəsindən.
Vətənə can atan ümid işığım
İşarar qürbətin pəncərəsindən.

## AH, BU TƏNHA QUMRU SƏSLƏRİ

Yaxşı ki,
bir-birinə qovuşmayan
iki ayrı sahili var
bir boğazın…
Yoxsa bağrın çatlayardı
Hər gün vətən həsrətindən.
(Vətən-qürbət alın yazın…)
Çölün düşmənlərini,
İçin özünü yandırır.
Dost yox, daha çox düşmən qazandırır
Qürbət uğurları…
Ah bu tənha qumru səsləri,
Ah bu çəkilməz qürbət axşamları,
vətən ağrıları…

## YORULDUNMU, YORULDUN…

Tale səni dərddən-dərdə salınca,
Gecələri baş qoymadın balınca…
Çatmadığın arzuların dalınca
Saat kimi quruldunmu yoruldun?

Yasaqlarda tükəndimi təpərin,
Qoruq yoxsa, nə işi var çəpərin?!
Ağız-ağız dolaşdımı xəbərin
Ondan-bundan soruldunmu, yoruldun?

Sönmüş ocaq, isinən yox istinə,
Nə gələn var, nə gedən var üstünə.
Kim su səpdi kor olası tüstünə,
Kül altında qor oldunmu, yoruldun?

Qəm deyilən bir nəğməydi, oxudun,
Gecə-gündüz dərddən göynək toxudun.
Çoxlarının gözlərində yox idin,
Sonra yoxdan var oldunmu, yoruldun?

Ömür nədir - bir nəğməlik qu ömrü,
Lillənməzmi, ləngiyirsə su ömrü?!
Qürbətlərdə çürütdünmü bu ömrü,
Həsrətlərdə qovruldunmu, yoruldun?

Sirr içində açılmayan sirr olsam,
Yersizlərə, yurdsuzlara yer olsam.
Arzun vardı, - dünya ilə bir olsam,
Dünya ilə bir oldunmu, yoruldun.?

Olsa-olsa, bir uzunca şeirdin..
Dərmanı yox dərddən patlar geyirdin.
Tale mənə yar olsaydı deyirdin,
Tale sənə yar oldumu yoruldun?

Günahının keşiyində durdular,
Hər fürsətdə işinə pəl vurdular.
Quluncunu qeybət kimi qırdılar,
Dünya sənə dar oldumu?Yoruldun…

Axar sular, axar-axar yorulmaz,
Payız-payız, bahar-bahar yorulmaz
Yağan yağış, ələnən qar yorulmaz,
Günəş batar, günəş doğar yorulmaz…

## SEÇİLMİŞ ADAM

Qeyibdən gələn səsdi
Gözə görünməzdi
Ümidsizə ümid
Sevgiyə yurd yeri -,
Bəyazla siyah arasındakı fərqdi,
İlahi dərkdi

Qumsalda qızıl qum,
Torpaqda damazlıq toxum kimidi
Vaxtın sarı simidi.
Kim seçmiş, niyə seçilmiş,
Soruşsan, özü də bilməz.
O toxum, ya o qızıl qum
Bilirmi seçildiyini?
Sirr içində bir bilən var,
Kimsə bilməz bildiyini…
Məkanı hicrət -
Çəkdiyi dərviş çiləsi;
Ayrılıq boyuna biçilmiş adam.
Gedib qürbətlərə bəxt aramada
Vətəndə başından keçilmiş adam,
Seçilmiş adam.

## SƏN İNDİ KİMİNÇÜN GƏLİRSƏN, EY YAZ?!

Gecənin beşində açan səhərlə,
Günəşə göz qırpan bənövşələrlə,
Bir dünya sevinclə, daha nələrlə,
Sən indi kiminçün gəlirsən, ey yaz?!
.
Dərəni dolduran bəyaz sislərin,
Gələn sorağımı yeni hisslərin?!
Şehli çəmənlərdə ayaq izlərin,
Sən indi kiminçün gəlirsən, ey yaz?!

Qaynada bilirsən qanımı, qaynat,
Oynada bilirsən ruhumu, oynat,
Anlada bilirsən, mənə də anlat
Sən indi kiminçün gəlirsən, ey yaz?!

Çıxan əldən çıxır, əvəzi gəlmir,
Əvəzi gəlməzin nəfəsi gəlmir,
Nəfəsi gəlməzin həvəsi gəlmir,
Sən indi kiminçün gəlirsən, ey yaz?!

Ekiz qardaş idik bir sürə sən, mən,
Gizli sirdaş idik bir sirrə sən, mən.
Hanı gəlişinə tir-tir əsən mən,-
Sən indi kiminçün gəlirsən, ey yaz?!

Məni də dindirən dillər var idi,
Mənə də açılan güllər var idi,
Mənə də gəldiyin illər var idi…
Sən indi kiminçün gəlirsən, ey yaz?!

## ALLAHIM

*Nicə bu fələk salgusı gurbətkə məni,*
*Hər lahza tügəngüsiz məşakkatka məni,*
*Nə çarə kılmay, nitəy ki, Tengri güya,*
*Mihnətni mingə yarattı, mihnətkə məni.*
***Babur Şah***

…Bu axşam da dərdə dönüb düşdü mənim başıma,
Bu duman da qəfil gələn işdi mənim başıma.
Dənizlərin qasırğası köçdü mənim başıma,
Bu gecəni başa vurmaq zordu mənə, Allahım.

Qismət nədir bilməzikən özü təşrif buyurdu.
Varlığımı bilməmişkən varlığını duyurdu.
Mən kim idim yurd seçəydim, özü seçdi bu yurdu,
Dar elədi öz seçdiyi yurdu mənə, Allahım.

Çıxmaq üçün açıq qoydu qəbir adlı qapını,
Nə veribsə o qədərdi bağlayıb kitabını.
Sorumlusu məniydimmi, dünyanın hesabını
Əzəl-axır sınağında, sordu mənə, Allahım.

Yenə əlac göyə qalmış, baxır lal sükut ordan,
Ümidsizə ümid yeri, tuta bilsən tut ordan.
İstədim də çıxammadım tale quran bu tordan,
Yer üzünün nəyi varsa tordu mənə, Allahım.

Fikrim səksən hesabında dayanmışam qapına,
Dardaneldən keçib gəldim, döndüm iynə sapına…
Nigahlandım qürbət adlı cəhənnəm əzabına,
Səndən gələn nə zülmət var nurdu mənə, Allahım.

## MARDİN

***(Tarixlə yaşıd şəhər)***

Bir adda iki Mardin,
Yeni Mardin, əski Mardin.
Yuxarısı tarix qalası
Buludlarla yarışanı,
Aşağısı dağ ətəyi…
Evləri arı pətəyi,
Sokakları arı şanı…
Bir yanı dərənin dibində
Buluda toxunur o bir yanı.

Camiləri Ağqoyunlu yadigarı,
Kilsələri Süryani.
Zaman ətrafında dönər;
Evlər göylərə ucalan nərdivandı:
Gündüzləri adamlar çıxar,
Axşamları mələklər enər.
Bu enən nərdivanlar,
Bu ucalan pillələr
Tarixin yaşamağa
Məskən seçdiyi şəhər…

Keçmiş - gələcəyin qəribi,
Gələcək - keçmişin qürbəti.
Gəzsən bircə sokağı var -
Tarixin baş sokağı
Günəşi qamaşdırar
Qızılının qırmızısı,
Gümüşünün ağı…
Mardin, Mardin,
Nə ömürlü zəvvarsan,
Yolun əvvəlində sən vardın,
Yolun sonunda da sən varsan.

## OT TOXUMLARI…

Ömrün tükəndi deyə
qəm yemə,
Elə belə bəsit deyil
bu işlər.
Keçmişsən, gələcəksən?
Hardan gəldiyini bilmirsənsə,
Hara gedəcəyini hardan biləcəksən, -
Bir əzəl axır var, bir əzəl axır
Gəldiyi yeri bilirmi su,
Getdiyi yeri bilməsə,
yenə də axır.
Darıxma,
dərd əlində karıxma;
Özbaşına deyil bu işlər,
Bu gəliş, bu gedişlər…
yoluna yenə çıxacaq ağ atlı oğlanlar,
baba dərvişlər,
az belə dərd çək.
yenə yaz getdiyi yerdən
bir gün geri gələcək.
Bəs nəyin nəsidir
payız şumları,
Boşuna torpağa qarışmır ki
Ot toxumları…

## YASAQ SEVGİLƏRİN YASAQ İZLƏRİ

***Güllər gedənlərin arxasınca heyrətlə baxır, şiddətlə ələnən qar çovğunları abidənin yanından uzaqlaşmaqda olan dörd ayaq izini itirməyə çalışırdı… Yasaq sevgilərin yasaq izləri!.***

...O qarlı diyarda, o uzaq eldə
Fürsət arayırdı sevən könüllər.
Üşüyə-üşüyə titrək bir əldə
Yasaq görüşlərə gedirdi güllər…

Elə bir açılan varmı solmaya,
Solmağa gedirdi satılan güllər.
Yasaq sevgilərə haqqı olmayan
Evlərə çatmamış atılan güllər…

Arzu güllərinə qönçədir vətən
Könül sevgiləri güldə var olar.
Güllərə qoşulub könüldü gedən, -
Qadın kilidinə gül, açar olar.

Küləklər bilərmi gülün iyini,
Buludun sirrini yağan qar bilər.
Buz üstə güllərin nə çəkdiyini
Əllər bilməsə də, şaxtalar bilər.

Bəs indi neyləsin taleyi təklər,
Tufana tuş gələn üç gül - üç könül:
Bir nəğmə deyirdi göydə mələklər:
“Ağ gül, qırmızı gül, bir də sarı gül…”

...Gözü gül görməz ki buzlu yolların,
Gülün güləcəyi çəmən, çayırdı.
Gülləri qar üstə donan kolların
Kökləri yer altda sızıldayırdı...

## YERİN GÖRÜNÜR

Mərmərənin dalğaları sahilə vurar,
Qarıldaşan qağayılar salama durar.
Qışmı düşən qismətinə yaz dura-dura
Göyün qara buludları yerdə sürünür, -
Yerin görünür...

Demirçoğlu caddəsində öğrətmən evi
Bilsən, kimin arxasınca qaçıbdı keyfi?!
Bu ayrılıq güzarında kim kimi sevir
Yoxsa elə bu sevgilər xəyal ürünü, -
Yein görünür...

Yollar zeytun bağçaları, alma bağları,
Adın ilə açılmada gül dodaqları...
Yoxsa vida dağlarımı İda dağları,
Məni belə tənha görüb sisə bürünür,
Yerin görünür...

İki sahil, həsrət çəkən sınıq tərəzi,
Ayrılığa körpü salır dəniz bərəsi,
Yetim qalan xatirələr həzindən həzin,
Hara baxsam, açılmayan sirrin görünür,
Yerin görünür...

## ÖMÜR OXUNMAMIŞ TALE ƏSƏRİ

Özün də bilmədən axı neylədin,
Bir gözəgörünməz axın eylədin…
Qürbəti qürbətə yaxın eylədin
Gözünü yollara dikərək, qadın.

Adı bilinməzdin, yad qızı yaddın,
Bəxtimi oyadıb savaba batdın.
Sonra da hicrətin oduna atdın
Yaxanı kənara çəkərək, qadın.

Axtarsan Adəmdən Həvvadan bəri
Ömür oxunmamış tale əsəri.
Dağın yağan qardan yoxmu xəbəri
Uzaqdan təsəlli nə gərək, qadın?

Başından sis qalxan dağlar arınır,
Buxara döndərir gün ahlarını.
Yu, yuya bilirsən günahlarını
Gözünün yaşını tökərək, qadın?!

Ömür deyilənin son ucu bumu,
Könül yarasını göz yaşı yumur…
Yenidən diriltmək ölən ruhumu
Yenə sənə qalmış, mübarək qadın.

## ANANI YALQIZ BURAXMIŞDIN…

Yapayalnız qalacaqsan, yapayalqız,
Tək qalacaqsan, tək,
Yaxındı uzaq gələcək.
Qocalığına
Nə şəhər yaxın duracaq,
Nə kənd.
Telefonların susacaq.
Ciyəri yanmış həsrət
Axırda qan qusacaq…
Uzaq-uzaq zamanlarda
Sonunu çox uzaq bilib
Bütün körpüləri yaxmışdın.
Hər şey təkrar olunacaq, hər şey
Yalqız öləcəksən, yalqız
İllər öncə son anında
Ananı yalqız buraxmışdın…

## ÖMÜR QIZIL DEYİL DƏYƏRƏ MİNƏ

Zirvəni bürüyən o duman, o çən
Gələn qocalığın göz dağlarıdı.
Bir az aşağıdan boğazdı keçən,
Bir az yuxarıda Qaz dağlarıdı.

Sən ey işıldaquş - atəş böcəyi,
Yollarda ayağı büdrəyən arzu.
Sən ey qönçələrin gül gələcəyi,
Baharı başına alıb gedən su.

Durub gözlədiyin gün gözə dəymir,
Ha çıx bəxt dağına boşuna hayla.
Bənövşə boynunu boşuna əymir,
Dərədə təntimir boşuna çaylar…

Zamanla can atar ay, il olmağa,
Ayrılıq sazını çalar həmişə.
Yamaclar yarışar sahil olmağa
Çaylar aralıqda qalar həmişə...

Gəzsən də qürbətin vətən yeri yox,
Özünə təsəlli versən də hərdən.
Yox, daha bu suyun gedən yeri yox,
Bir daha göl olmaz gölməçələrdən.

Ayrılıq gəlməz ki imana, dinə,
Gənclik qocalıqla çıxmaz görüşə.
Ömür qızıl deyil dəyərə minə,
Yarpaqdı, bahardan payıza düşər.

Ürək boşalanda, söz deyiləndə
Hərənin bəxtinə bir vədə düşər...
Zaman büdrəyəndə, yük əyiləndə
Soruş gör daş niyə qürbətə düşər...

Yox, daha qəribçün açılmaz səhər
Günəş şəfəqini özüyçün saçır.
Ağac çiçəyini özüyçün açır,
Xəyalı tədirgin, ümidi qançır.
Sən mənə baxmadın, mən sənə baxdım,
Getmisən, geriyə dönsənə, baxtım?!

## EYNİNİ AÇMAZ Kİ AÇILAN SƏHƏR

Eynini açmaz ki açılan səhər,
Bir dərdə sığınıb qalmaq da varmış.
Qürbətin əlindən çıxıb birtəhər
Vətən xəyalına dalmaq da varmış...

Dayanıb payızın künc-bucağında
Vətən yollarına baxmaqdı peşən.
Yaşın bu çağında, qəm qucağında
Bitib tükənməz ki vətən əndişən.

Ömür sınağında nəfsinə sınsan,
Çəkdiyin çiləllər hədər gedər ki?!
Yoxun varlığına inanan insan
Varın yoxluğuna nə dərd edər ki?

Kəm bəxtin kimlərin yadına düşdü,
Harda xatırladı kim, harda, səni.
Vətən qürbət ilə necə görüşdü,
Və... harda uduzdu "qumarda" səni?

## YETMİŞDƏN O YANDA QALAN SEVGİLƏR

Ölüm diksindirər ruhunu hərdən,
Beləmi olurmuş yaxına gəlmək?
Sevilən günlərdən, sevən günlərdən
Ömrün sevilməyən çağına gəlmək...

Bu suçun astarı üzündən baha,
Mələklər qatında bilinməz sayı.
Bu necə həsrətdi, dodaq-dodağa
Gecikən baharla tələsən payız...

İtdi, cümlələrin nöqtə, vergülü,
Söz-sözə yovuşub dilə gələmmir.
O gözün oduyla bu gözün külü
Nə illah etsən də qafiyələnmir...

Əvvələ yararı yox ki, sonların
Boşluqlar doldurar dəstəyi gür-gür.
Üstünə qar yağsın telefonların,
Bir dost səsini də mənə çox görür...

Buludlar yerini söyləyər sənin
Yol çəkən gözlərin dolub hardasa.
Qoxusu burnunda qalan bədənin
Yuxusu dərbədər olub hardasa...

Qırınqırınıtısı ilk məhəbbətin,
Ah yalan sevgilər, yalan sevgilər.
Altmışdan bu yana keçməsi çətin,
Yetmişdən o yanda qalan sevgilər.

**OXUCULARIN NƏZƏRİNƏ!**
**2020-ci İL ÜÇÜN**
**“AZƏRBAYCAN”**
**jurnalına abunə yazılışı davam edir.**
**“AZƏRBAYCAN”**
**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,**
**illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**